# Azərbaycan Avropa Şurasının Antidopinq Konvensiyasının tədbirində təmsil olunub

Fransanın paytaxtı Paris şəhərində Avropa Şurasının Antidopinq Konvensiyasının Elm üzrə Məsləhətçi Qrupunun (T-DO SCI) növbəti görüşü keçirilib.

Azərbaycan Milli Antidopinq Agentliyindən (AMADA) AZƏRTAC-a bildirilib ki, Avropa Şurasının ofisində təşkil olunan tədbirdə ölkəmizi AMADA-nın icraçı direktorunun müavini Rüfət Efendiyev təmsil edib.



Ondan artıq ölkədən milli antidopinq təşkilatlarının nümayəndələri və Ümumdünya Antidopinq Agentliyi (WADA) tərəfindən akkreditasiya olunmuş laboratoriyaların təmsilçiləri - 2025-2027-ci illər üçün elmi prioritetləri müəyyənləşdirmək məqsədilə bir araya gəlib. Gündəlikdə Qrupun prioritet sahələrinin nəzərdən keçirilməsi, yaxınlarda keçirilmiş sorğunun nəticələri və fəaliyyət planı ilə bağlı müzakirələr yer alıb.

Görüşdə həmçinin 2027-ci ildə qüvvəyə minəcək yeni Ümumdünya Antidopinq Məcəlləsinə və Beynəlxalq Standartlara elmi töhfələrin verilməsi məsələsi, laboratoriyalarla bağlı yeniliklər, texniki sənədlər və növbəti məcəllə islahatı dövründə planlaşdırılan əsas dəyişikliklər müzakirə olunub. 2026-cı ildə MEDICRIME Konvensiyası ilə əməkdaşlıq çərçivəsində keçiriləcək "Qadağan edilmiş maddələr üzrə Beynəlxalq Konfrans"a hazırlıq da diqqət mərkəzində olub.

Tədbir yeni alətlər, o cümlədən "Antidopinq Sorğusu üzrə Dinamik Panel" və digər vasitələrin təqdimatı ilə araşdırmaların koordinasiyasına dair sessiya ilə yekunlaşıb.

Görüş Avropada təmiz idmanın qorunması və ictimai sağlamlığın təmin olunması üçün elmə əsaslanan siyasətlərin əhəmiyyətini bir daha təsdiqləyib.

Azərbaycan.- 2025.- 24 sentyabr (№ 204).- S.10.